


# Bakıda 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi keçirilir




*Bakı Ekspo Mərkəzində sayca 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi ("Caspian Agro") və 30-cu yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi ("InterFood Azerbaijan") öz işinə başlayıb.*

Sərginin açılış mərasimində çıxış edən kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov bildirdi ki, son illərdə ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilir, dövlət dəstək mexanizmləri gücləndirilir, fermerlərin texnologiya və maliyyə resurslarına çıxışı asanlaşdırılır. Həmçinin qeyd etdi ki, kənd təsərrüfatı və qida sənayesində innovativ həllərin və yeni texnologiyaların təqdim edildiyi builki sərgidə süni intellektin tətbiqinə, ağıllı idarəetmə sisteminə əsaslanan avtomatlaşdırılmış texnologiyalar, enerji və resursqoruyucu texnologiyalar, alternativ enerji mənbələrindən istifadəyə imkan verən avadanlıqlar, iqlim dəyişmələrinə davamlı kənd təsərrüfatı məhsulları və dayanıqlı təsərrüfatçılıq həllərinin nümayişinə üstünlük verilib.

Tədbirdə çıxış edən Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bildirdi ki, qlobal iqlim dəyişmələri və iqtisadi-siyasi dəyişmələrin mövcud olduğu dövrdə ölkəmizdə inkişafyönümlü tədbirlər həyata keçirilir: "Son illər ölkəmizdə qida təhlükəsizliyi sahəsində həyata keçirilən islahatlar, görülən işlər nəticəsində kənd təsərrüfatı və qida sənayesinin yüksəlişi daxili və xarici bazarda yeni imkanların, iqtisadi-ticari əlaqələrin daha da genişlənməsi, ölkəmizdə istehsal olunan bir sıra qida məhsullarının ixrac potensialı üçün münasib şərait yaradır".

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov sərgilərin KOB-ların satış imkanlarının genişləndirilməsində, məhsul və xidmətlərin tanıdılmasında önəmini qeyd etdi. Sədr vurğuladı ki, 2018-ci ildən etibarən 1500-dən çox startap, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin müxtəlif ixtisaslaşmış yerli və xarici sərgilərdə, yarmarkalarda iştirakına KOBİA tərəfindən dəstək göstərilib. Əvvəlki illərdə olduğu kimi, bu il də KOB-ların bazarlara çıxışının və satış imkanlarının genişləndirilməsinə dəstək məqsədilə KOBİA-nın stendində aqrar və qida sektorlarında fəaliyyət göstərən 10-a yaxın KOB subyektinin məhsul və xidmətləri təqdim edilir.

Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev Agentliyin ixracatçılara yerli və beynəlxalq sərgilərdə iştirakına göstərdiyi dəstək haqqında danışdı, ölkəmizin bu il "Made in Azerbaijan" brendi altında bir sıra beynəlxalq sərgilərdə təmsil olunacağını diqqətə çatdırdı.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev Azərbaycanda aqrar sahənin inkişafının həm əhalinin məşğulluğu, həm də ölkəmizin ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıdığını bildirdi.



FAO-nun (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) ölkəmizdəki nümayəndəsi Muhammad Nasar Hayat öz növbəsində ötən ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasının qlobal iqlim dəyişmələri ilə mübarizədə mühüm rol oynadığını qeyd etdi.

Sərginin vacibliyini bildirən "Caspian Event Organisers" şirkətinin Baş direktoru Fərid Məmmədov dedi ki, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri bu gün iqtisadi tərəfdaşlıqların qurulmasına və sektorun inkişafına ciddi töhfə verir.

Daha sonra nümayəndə heyəti "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri ilə tanış oldular. Bakı Ekspo Mərkəzinin bütün pavilyonlarını və açıq sahəsini əhatə edən builki "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir. Sərgilərə Azərbaycanla yanaşı, Almaniya, ABŞ, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Cənubi Koreya, Fələstin, Finlandiya, Gürcüstan, Hindistan, İordaniya, İran, İspaniya, İsrail, İsveç, İtaliya, Kanada, Latviya, Misir, Niderland, Özbəkistan, Qazaxıstan, Rusiya, Serbiya, Şri-Lanka, Türkiyə, Türkmənistan və Yunanıstandan şirkətlər qatılıb. Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, eləcə də ilk dəfə olaraq Misir Milli Qrupları sərgidə kənd təsərrüfatı və qida sənayesi məhsulları sərgilənir.

Bu il ilk dəfə olaraq dörd gün davam edəcək "Caspian Agro" sərgisində kənd təsərrüfatında tətbiq olunan müasir innovativ texnologiyalar, texnikalar, müasir suvarma sistemləri nümayiş olunur. İştirakçılar Elektron Kənd Təsərrüfatı, robototexnika, pilotsuz uçuş aparatları, IT xidmətləri, süni intellekt, "ağıllı kənd", startaplar, alternativ enerji mənbələri, "Green Agro" kimi smart bölmələrdə maraqlı məlumatlar öyrənə bilərlər.

Builki sərgidə ilk dəfə olaraq balıqçılıq və akvakultura sahəsi də təmsil olunur. "Caspian Agro" sərgisi balıqçılıq və akvakultura sahəsinin də inkişafına dəstək verəcək innovativ həllərin və qabaqcıl texnologiyaların nümayişi üçün mühüm platformadır.

Sərgi çərçivəsində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə II Beynəlxalq Aqrar İnnovasiya Forumu keçiriləcək. Forum çərçivəsində müasir kənd təsərrüfatı yanaşmalarında aqropark modeli, süni intellektin aqrar sahədə tətbiqi, aqrar sığorta sisteminin inkişaf perspektivləri, dayanıqlı qida sistemləri, kənd təsərrüfatı və qida elmləri sahəsində təcrübə mübadiləsi, innovativ kənd təsərrüfatı, aqrar sahədə qadınların rolu və digər vacib mövzular üzrə müzakirələr aparılacaq.

Bu il ilk dəfə olaraq azad edilmiş ərazilərdə fəaliyyət göstərən fermerlər də sərgi çərçivəsində keçirilən turlara qatılırlar. Ümumilikdə 57 rayondan fermerlər qabaqcıl texnologiyalar və yeni sənaye təcrübələri ilə tanış olmaq imkanı əldə edəcəklər.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 14 may (№98).- S.4.